# 20 Yanvar–qəhrəmanlıq salnaməsi

## Ümumxalq Hüzn Günü ilə əlaqədar toplantı

20 Yanvar faciəsinin 29-cu ildönümü ilə əlaqədar Qəbələ Mədəniyyət Mərkəzində toplantı keçirilib.



Tədbir 20 Yanvar şəhidlərinin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsiylə başlayıb.

Sonra regional mədəniyyət idarəsinin baş məsləhətçisi Nargilə Qafarova, mərkəzin təşkilatçı metodisti Natəvan Mürşüdova, mərkəzinin direktoru Malik Ağayev və digərləri çıxış edərək bu faciənin başvermə səbəbləri barədə söhbət açıblar və qanlı 20 Yanvar faciəsinin xalqımızın azadlıq uğrunda mübarizəsinin başlanğıcı olduğunu bildiriblər.

Çıxışlarda 20 Yanvar hadisəsinə siyasi-hüquqi qiymətin yalnız ulu öndər Heydər Əliyev tərəfindən verildiyi qeyd edilib.

Tədbirin sonunda foyedə mədəniyyət mərkəzinin nəzdində fəaliyyət göstərən rəsm dərnəyi üzvlərinin 20 Yanvar faciəsi ilə əlaqədar çəkdikləri rəsmlərə baxış keçirilib.

**“Qəbələ”**

## 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar tədbir keçirilib

FHN Şimal-qərb Regional Mərkəzində 20 Yanvar faciəsinin 29-cu ildönümünə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə xalqımızın azadlığı və vətənimizin müdafiəsi uğrunda şəhid olmuş həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Çıxış edən əməkdaşlar 1990-cı ilin yanvar ayının 19-dan 20-ə keçən gecə Sovet ordusunun dinc Azərbaycan xalqına qarşı törətdiyi qanlı qətliamın insanlığa qarşı törədilmiş ağır cinayət olduğunu bildirib, Vətənin azadlığı, suverenliyi uğrunda qəhrəmanlıq göstərərək canlarından keçmiş Azərbaycanın mərd oğul və qızlarının şücaətindən danışıblar.



Milli azadlığı və öz ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış xalqa görünməmiş divan tutduğunu qeyd edən natiqlər qanlı qırğından bir gün keçməmiş ümummilli lider Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək kədərini, başsağlığını Azərbaycan xalqına çatdırdığını, həmin hadisənin törədilməsinə rəvac verən Mixail Qorbaçov başda olmaqla Sovet hakimiyyətinin antiazərbaycan siyasətini ifşa edən bəyanat verdiyini vurğulayıblar.

Sonda 20 Yanvar faciəsini əks etdirən sənədli filim nümayiş etdirilib.

**FHN Şimal-qərb Regional Mərkəzinin maarifləndirmə sektoru.**

## Açıq dərs

20 Yanvar Ümumxalq Hüzn Günü ilə əlaqədar rayon təhsil şöbəsində geniş tədbirlər planı hazırlanmışdır.



Tədbirlər planına uyğun olaraq Qəbələ şəhər 1 nömrəli tam orta məktəbində 20 Yanvar faciəsinə həsr olunmuş açıq dərs keçirilmişdir.

Tarix müəllimi Elmira Əsədovanın apardığı açıq dərsdə şagirdlərə 20 Yanvar qırğınının yaranma səbəbləri, bu qanlı hadisənin tariximizdə buraxdığı izlər və nəticələri barədə geniş məlumat verilmişdir. Əsasən dialoq şəklində keçən dərsdə bir daha məlum olmuşdur ki, şagirdlər tariximizin bu qanlı, eyni zamanda qəhrəmanlıq səhifəsi barədə geniş biliyə malikdirlər. Dərsdə 20 Yanvar hadisələrinin xalqımızın müstəqillik uğurnda mübarizəsində yeni daha fəal bir səhifəsinin başlanğıcı olduğu diqqətə çatdırılmışdır.

Açıq dərsdən sonra məktəb müəllimlərinin, şagirdlərin və təhsil şöbəsi işçilərinin iştirakı ilə 20 Yanvar faciəsinə həsr olunmuş «Qan yaddaşımız» adlı tədbir keçirilmişdir. Tədbirdə məktəb direktorunun müavini Nurdanə Müzəffərova 20 Yanvar faciəsi ilə əlaqədar məruzə etmişdir. Natiq çoxlu faktlarla sovet imperyasının bu qanlı qətliamı və nəticələri barədə dinləyicilərə geniş məlumat vermişdir.

Sonra şagirdlərin ifasında 20 Yanvar faciəsinə həsr olunmuş kompozisiya nümayiş olunmuşdur.

Yekunda tədbir iştirakçıları rayon uşaq-gənclər yaradıcılıq mərkəzinin 20 Yanvara həsr etdiyi şərqiyə baxmışlar.

Tədbirlərdə rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova iştirak etmişdir.

**“Qəbələ”**
**İlkin Vəlizadə (foto).**

## Xatirə turniri

20 Yanvar Ümumxalq Hüzn Günü ilə bağlı rayon təhsil şöbəsinin tədbirlər planına uyğun olaraq Qəbələ şəhər 5 nömrəli tam orta məktəbdə rayon məktəbliləri arasında basketbol yarışı keçirilmişdir.



Məktəbin idman müəllimi Rafiq Əhmədov yarışın 20 Yanvar faciəsinin 29-cu ildönümünə həsr edildiyini bildirmiş və şərtlərini elan etmişdir.

Açılış mərasimində iştirak edən rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova 20 Yanvar Ümumxalq Hüzn Günü ilə əlaqədar təhsil şöbəsində geniş tədbirlər planı hazırlandığını və ardıcıl olaraq silsilə tədbirlər həyata keçirildiyini bildirmişdir.

Çıxışının sonunda təhsil şöbəsinin müdiri yarış iştirakçılarına uğurlar arzulamışdır.

Mirzəbəyli kənd və Qəbələ şəhər 5 nömrəli tam orta məktəb komandaları arasında keçirilən final yarışmasında Mirzəbəyli məktəbinin komandası qalib gəlmiş, diplom və medalla təltif olunmuşdur.

**“Qəbələ”**
**İlkin Vəlizadə (foto).**

## 20 Yanvar qan yaddaşımızdır

Qəbələ Poçt Flialında 20 Yanvar faciəsinin 29-cu ildönümü ilə əlaqədar “20 Yanvar qan yaddaşımızdır” mövzusunda tədbir keçirilmişdir.

Tədbiri filialın rəisi Rauf Kərimov açmış, 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Rauf Kərimov çıxışında 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə ermənipərəst qüvvələrin və onların SSRİ rəhbərliyindəki havadarlarının məkrli planı nəticəsində Bakıya ordu və xüsusi təyinatlı dəstələrin yeridildiyini, dinc əhaliyə qarşı divan tutulduğunu diqqətə çatdırmışdır.

Bildirilimişdir ki, həmin gün beynəlxalq hüquq normaları kobud şəkildə pozulub, nəticədə qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri öldürülüblər.

Qanlı hadisəyə ilk olaraq ümummilli lider Heydər Əliyevin öz etiraz səsini ucaltdığını deyən natiq ulu öndərin 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirdiyi mətbuat konfransında faciəni törədən şəxsləri kəskin şəkildə tənqid etdiyini vurğulayıb. O, əvvəlcədən planlaşdırılmış 20 Yanvar qətliamının Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşıdığını, lakin bu planın baş tutmadığını söyləmişdir.



Qeyd edilmişdir ki, ümummilli liderin siyasi xəttini böyük uğurla davam etdirən Prezident İlham Əliyev tərəfindən şəhid ailələrinə və Vətənin azadlığı uğrunda mübarizədə sağlamlıqlarını itirmiş şəxslərə daim dövlət qayğısı göstərilir.

Toplantıda çıxış edən mərkəzin əməkdaşları totalitar sovet rejiminin süqutu ərəfəsində daha da güclənən cinayətkar mahiyyəti haqqında danışmış, Vətənin azadlığı, suverenliyi uğrunda qəhrəmanlıq göstərərək canlarından keçmiş Azərbaycanın mərd oğul və qızlarının şücaətindən söhbət açmışlar.

Bildirilmişdir ki, Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi yazılan qanlı yanvar faciəsində şəhid olanların xatirəsi yaddaşlardan heç vaxt silinməyəcəkdir.

**“Qəbələ”**